# AZƏRBAYCANA GƏLSİN

Şuşada dağ başında
Al qırmızı, yaşıllı,
göy zolaqlı yellənən,
Bayraq görmək istəyən
Qarabağ torpağına
Azərbaycana gəlsin.

Bu gün, bu torpaqlarda,
Cənnət quran insanlar,
Qarabağ dağ başında,
Əlində üçrəng bayraq,
Yerində mərd dayanar
Oğul görmək istəyən
Azərbaycana gəlsin.

Yaşadıb millətini
qara gündən qoruyan,
Daha pis əməllərdən,
xəyanətdən qoruyan,
Qəhrəman əsgərləri
görmək istəyən varsa,
Azərbaycana gəlsin.

Ulu Öndərtək böyük
qüdrətli bir müəllim,
Azərbaycan adını,
Yer üzündə tanıdan,
Adil, dahi, möhtəşəm,
Rəhbər görmək istəyən,
Azərbaycana gəlsin!

*Tərana CAVADOVA*



Kredo.- 2022- ci il.- 9 mart.- S. 14.